“Təsdiq edirəm”

Sosial menecment fakültəsinin dekanı

_____ f.e.ü.f.d., dos. Allahverdiyev K.H.

09 fevral 2022-ci il

ATMU-SMF-İTP(BH)-01

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ
Beynəlxalq münasibətlər kafedrası

İF-B19 Beynəlxalq hüquq fənni
üzrə

İŞÇİ TƏDRİS PROQRAMI

2022/2023-cü tədris ili

BAKI – 2022

I. Ümumi məlumat

Qrup: BM 2001	**Semestr: ☒ payız ☐ yaz ☐ yay**
Fakültə: Sosial menecment	**Kafedra:** Beynəlxalq münasibətlər
İxtisas: Beynəlxalq münasibətlər	**Təhsil pilləsi: ☒ bakalavriat ☐ magistratura**
Fənnin tədris dili	**☒ Azərbaycan ☐ İngilis ☐ Rus**
Tədris forması	**☒ Əyani ☐ Qiyabi**
Fənn üzrə kredit sayı: 6	**Fənn üzrə saat sayı:** 75
Prerekvizit fənn (əgər varsa): yoxdur	**Məsləhət saatları:** Bazar ertəsi (10:00-10:45)
Fənn müəlliminin elmi dərəcəsi, soyadı, adı, ata adı:	*h.ü.f.d., dos. Məmmədov Əli Əhməd oğlu*
Müəllimin e-poçt ünvanı:	a.mammadov@atmu.edu.az

II. Fənnin məqsədi

“Beynəlxalq hüquq” fənninin tədrisinin məqsədi beynəlxalq hüquq münasibətlərinin ayrı-ayrı növlərinin tənzimlənməsi elementlərini, beynəlxalq hüquq mənbələrinin məzmunu və milli hüquq sistemində yeri, beynəlxalq hüququn əsas prinsiplərinin beynəlxalq-hüquqi tənzimetmədə rolunu, beynəlxalq təşkilatların və beynəlxalq məhkəmə qurumlarının beynəlxalq və milli hüquqi tənzimetmədə əhəmiyyətini, hüququn ayrı-ayrı sahələrinin əsas xüsusiyyətlərini və istiqamətlərini və beynəlxalq hüququn prinsip və normalarını beynəlxalq proseslərin və hadisələrin təhlilində və qiymətləndirməsində tətbiq etməyi öyrətməkdir.

III. Fənnin qısa təsviri və təlim nəticəsi

3.1. Fənnin qısa təsviri

“Beynəlxalq hüquq” fənni beynəlxalq hüququn kateqoriyalı aparatının, əsas beynəlxalq müqavilələrin müddəalarının, beynəlxalq hüquq adət-ənənələrinin, məhkəmə və arbitraj təcrübəsinin öyrənilməsinə, habelə beynəlxalq hüququn əsas məsələlərinə doktrinal yanaşmalara həsr edilmişdir. “Beynəlxalq hüquq” fənnini müvəffəqiyyətlə mənimsəmiş tələbələr beynəlxalq hüququn mənbələri, beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi, məcburetmə tədbirlərinin tətbiqi və beynəlxalq hüquqi məsuliyyətə cəlb edilməsinin xüsusiyyətləri, dövlətin beynəlxalq hüququn subyekti kimi statusu, dinc yolu ilə beynəlxalq mübahisələrin həlli vasitələri kimi məsələləri ilə tanış olacaqlar.

“Beynəlxalq münasibətlər” təhsil proqramının ixtisas fənlərinə aid “Beynəlxalq hüquq” fənni 3-cü kursda, beşinci semestrdə öyrənilir. Bu fənn həmin ixtisas üzrə tədris olunan“Azərbaycanın və xarici ölkələrin dövlət hüququ” kimi əvvəllər öyrənilmiş fənlərlə qarşılıqlı əlaqədədir və öz növbəsində “Beynəlxalq xüsusi hüquq” və “Diplomatik və konsulluq fəaliyyətinin hüquqi əsasları” fənlərini öyrənmək üçün zəruri olan bilikləri təmin edir.

3.2. Fənnin təlim nəticələrinin peşə kompetensiyaları ilə əlaqəsi

Bu fənni uğurla mənimsəyən tələbə:

- FTN 1: Əsas beynəlxalq hüquq prinsiplərinin məzmunu haqqında təsəvvürə malikdir;
- FTN 2: Beynəlxalq və milli hüququn institutları arasında qarşılıqlı əlaqə mexanizmlərini göstərir;
- FTN 3: Beynəlxalq hüququn inkişaf tarixinin əsas dövrlərini sadalayır;
- FTN 4: Beynəlxalq hüququn nəzəriyyəsi və təcrübəsinin aktual problemlərinə dair əsas elektron və çap məlumat mənbələri sadalaya bilir;
- FTN 5: Beynəlxalq hüquq institutlarının inkişafına təsir edən əsas iqtisadi və siyasi amillər haqqında təsəvvürə malikdir;
- FTN 6: Beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsində ifadə olunan müddəaların etibarlılığını qiymətləndirir;
- FTN 7: Tədqiqat işlərinin yazılması zamanı beynəlxalq hüququn müxtəlif problemləri üzrə mövcüd ədəbiyyatın icmalını verir.

Fənnin təlim nəticələrinin ixtisas üzrə peşə kompetensiyaları ilə əlaqəliliyi matrisi

İxtisas üzrə peşə kompetensiyaları	**Fənnin təlim nəticələri**						
	FTN 1	**FTN 2**	**FTN 3**	**FTN 4**	**FTN 5**	**FTN 6**	**FTN 7**
Beynəlxalq hüquq münasibətlərinin ayrı-ayrı növlərinin tənzimlənməsi elementlərini, beynəlxalq müqavilələr də daxil olamaqla beynəlxalq hüququn mənbələrinin məzmunu və milli hüquq sistemində yeri, o cümlədən tətbiqi xüsusiyyətlərini, beynəlxalq hüququn əsas prinsiplərinin beynəlxalq-hüquqi tənzimetmədə rolunu, beynəlxalq təşkilatların və beynəlxalq məhkəmə qurumlarının beynəlxalq və milli hüquqi tənzimetmədə əhəmiyyətini, nəhayyət hüququn ayrı-ayrı sahələrinin əsas xüsusiyyətlərini və istiqamətlərini bilmək.	X	X	X	X	X		
Beynəlxalq hüququn prinsip və normalarını beynəlxalq proseslərin və hadisələrin təhlilində və qiymətləndirməsində tətbiq etməyi bacarmaq.						X	X

IV. Kursun tələbləri

4.1. Akademik dürüstlük

Akademik dürüstlük qaydalarına riayət olunması ATMU icmasının bütün üzvlərinin (o cümlədən, tələbələr, akademik heyət, tədqiqatçılar və s.) əsas vəzifələrindən biridir. Tələbələrə "Tələbənin məlumat kitabçası"nda qeyd olunmuş əsas plagiat növlərindən çəkinmələri tövsiyə olunur.

4.2. Etik davranış qaydaları

Universitetdə tələbələrlə iş Azərbaycan Turizm və Menecment Universitetində təhsilalanların Etik Davranış Kodeksində[1] qeyd olunmuş etik-davranış normaları və prinsipləri, hüquq və vəzifələri, məsuliyyəti və məsuliyyətə cəlb olunma qaydalarını rəhbər tutaraq icra olunur, tələbələrin Kodekslə tanış olmaları və təhsil zamanı onu rəhbər tutmaları zəruridir.

V. Əsas və əlavə ədəbiyyat siyahısı

5.1. Əsas ədəbiyyat

1. Hüseynov L. Beynəlxalq hüquq / L. Hüseynov. – Bakı: "Qanun", - 2012. – 367 s.
2. Əliyev E. Beynəlxalq hüquq: anlayışı, hüquq doktrinası və tədris kursu / E. Əliyev. – Bakı: "Günəş-B", - 2016. – 99 s.

2.2. Əlavə ədəbiyyat

1. Международное право: учебник / Б.М. Ашавский, М.М. Бирюков, В.Д. Бордунов и др.; отв. ред. С.А. Егоров. 5-е изд., перераб. и доп. Москва: Статут, - 2014 – 1087 с.
2. Мельниченко Р. Международное право: электронный учебник/ URL: https://melnichenko.net/_p_name167.html
3. Damrosch, Lori F., International law. Cases and materials (St. Paul, Minn., 5h edn, 2009)
4. Macey J. R. Miller G. P. The End of History and the New World Order: The Triumph of Capitalism and the Competition between Liberalism and Democracy // Cornell International Law Journal. Volume 25, Number 2 (Spring 1992) pp. 277-303
5. Shaw M. N. International law. 8th edition/ M. N. Shaw. - Cambridge University Press, - 2017. – 1710 p.

6. Qiymətləndirmə siyasəti

Tələbələrin fənlər üzrə biliyinin qiymətləndirilməsi çoxballı (100 ballı) sistemlə həyata keçirilir.

[1] Etik Davranış Kodeksi: https://bit.ly/3zQFYPx

6.1. Qiymətləndirmə bölgüsü

Yekun qiymət seminarlarda verilən cavablara (20 bal), aralıq qiymətləndirməyə (30 bal) və imtahanda (50 bal) qiymətləndirməyə görə verilən balların cəmidir.

Qiymətləndirmə forması	**Açıqlama**	**Bal**
Seminar	Seminar balları (0-10 bal arası) toplanaraq bal sayına bölünür və ikiyə vurularaq yekun seminar balı əldə edilir.	**20**
Aralıq qiymətləndirmə	8-ci tədris həftəsində (yazılı, şifahi-dinləmə, test) formasında təşkil olunur.	**30**
Davamiyyət	Fənn üzrə **25%** dərs buraxan tələbə yekun imtahana buraxılmır. Davamiyyət göstəricisinə görə tələbəyə bal verilmir.	**-**
Yekun imtahan	Semestrin sonunda (yazılı, şifahi-dinləmə, test) formasında təşkil olunur.	**50**

Cari qiymətləndirmə onballıq sistem üzrə aparılacaq.

Aralıq qiymətləndirmə təqdimat əsasında təşkil ediləcəkdir. Təqdimat – verilmiş mövzu üzrə məzmununu düzgün çatdırmaq, verilən zaman çərçivəsindən kənara çıxmamaq, işin məntiqi strukturuna riayət etmək, istifadə olunan slaydların strukturlaşdırılması, suallara cavab vermək, kimi meyarlara əsasən qiymətləndiriləcək. Təqdimat maksimum 30 balla qiymətləndirilir.

Yekun qiymətləndirmə imtahanı 5 sualdan ibarət olmaqla yazılı şəkildə keçiriləcək. İlk üç sual Blumun təhsil məqsədləri iyerarxiyasının aşağı səviyyələri (yadda saxlama, anlama və istifadə etmə) əhatə etməklə açıq sual formasında, digər iki sual isə daha yüksək səviyyələrə (təhlil etmə, qiymətləndirmə və yaratma) uyğun tərtib edilmiş case-study tapşırıqlardan ibarət olacaq. Bütün suallar on ballıq sistemlə qiymətləndirilir. Yekun imtahanda əldə oluna biləcək ən yüksək nəticə 50 baldır.

6.2. Yazı işlərin və təqdimatların tərtibi qaydaları və qiymətləndirilməsi

6.2.1. Təqdimat

Təqdimatın texniki göstərişləri:

- Həcmi: 10-15 slayd
- Şrift: Times New Roman, sətirlərarası məsafə:1.15
- Uzunluğu: 15-20 dəqiqə
- Format: Power Point

Meyarlar/	**1-2**	**3-4**	**5-6**	**7-8**	**9-10**

Ballar					
İşin strukturu	Təqdimatın strukturu qarışıq və səliqəsizdir. Struktur hissələri arasında ardıcıllıq və / və ya əlaqə mövcud deyil. Əsas məqamlar aydın deyil. Komponentlər arasında keçid yoxdur.	Struktur məqsədə qismən uyğundur. Tərkib hissələri arasında əlaqə yoxdur və ya zəif göstərilmişdir.Əsas məqamlar yanlış ifadə olunur. Köməkçi materialdan stifadə olunmayıb.	Struktur əsasən məqsədə uyğundur. Bəzi vacib məqamlar səhv tərtib olunub. Struktur hissələri arasında ardıcıllıq və əlaqə qismən gözlənilir. Köməkçi material səmərəsiz seçilib.	Struktur məqsədə uyğundur. Əsas məqamlar aydın şəkildə təqdim olunur və köməkçi material onları daha aydın başa düşməyə kömək edir. Struktur hissələri arasında ardıcıllıq və əlaqə əsasən gözlənilir.	Təqdimatın strukturu məqsədə nail olmaq üçün tam nizamlı şəkildə tərtib olunub. Struktur hissələri arasında ardıcıllıq və əlaqə vardır. Vacib məlumat diqqət mərkəzindədir, dəstəkləyici məlumatlar isə məqsədə çatmağa xidmət edir.
Məzmun	Mərkəzi ideya mövcud deyil. Məlumat qeyri-dəqiq və ya qeyri-müəyyəndir. Mənbələr məzmunu çatdırmağa imkan vermir. Məlumat ümumiyyətlə nitqin və ya auditoriyanın məqsədinə uyğun deyil..	Mərkəzi ideyada aydınlıq və dəqiqlik yoxdur. Məlumat əsasən dəqiqdir, lakin mənbələr uyğunsuz ola bilər. . Məlumatda maraq və müxtəliflik yoxdur. Əksər məlumatlar nitqin və ya auditoriyanın məqsədinə uyğun deyil.	Əsas fikir aydın və qısadır. Təqdim olunan məlumat əsasən dəqiq, aydın və obyektivdir, lakin aktuallıq, tamlıq, maraq və müxtəliflik bəzi hallarda mövcud deyil. Məlumat təqdimatın məqsədinə tam olaraq uyğun deyil.	Əsas fikir aydın və qısadır. Təqdimatdakı məlumatlar dəqiq, aydın, aktual, obyektiv, kifayət qədər maraqlı, dolğun və təqdimatın məqsədinə uyğunlaşdırılmışdır. İnformasiya mənbələri bəzən dəqiq müəyyən edilmir.	Əsas ideya aydın və qısa şəkildə təqdim olunur. Təqdimatdakı məlumatlar dəqiq, aktual, obyektiv, kifayət qədər maraqlı, dolğun, auditoriyaya və təqdimatın məqsədinə uyğunlaşdırılmışdır.
Şifahi təqdimat qabiliyyəti	Çıxış dinləyicilər üçün aydın deyil və maraq	Dinləyici ilə göz təması zəif qurulur. İllüstrativ	İllüstrativ materialdan səmərəsiz istifadə olunur.	Materialın təqdim edilmə tərzi onun mənimsənilməs	Təqdimat zamanı şifahi və şifahi olmayan

	doğurmur. Dinləyici ilə göz təması qurulmur.	materialdan səmərəsiz istifadə olunur. Material haqqında biliklər kifayət qədər deyil.	Dinləyici ilə təsadüfi göz təması mövcuddur. Material haqqında bilikləri məhduddur.	inə kömək edir. Tamaşaçılarla göz təması qurulur. Əgər varsa, əyani vəsaitlərdən səmərəli istifadə olunur.	ünsiyyət üsullarından məharətlə istifadə olunur. Tamaşaçılarla daimi göz təması saxlanılır, əyani vəsaitlərdən səmərəli istifadə olunur. Material cəlbedici və sərbəst şəkildə təqdim olunur.

6.2.2. Hesabat

Hesabatın texniki göstərişlər:

- Həcmi: 5-10 səhifə (titul vərəq, ədəbiyyat siyahısı və əlavələr istisna)
- Şrift: Times New Roman 14, sətirlərarası məsafə:1.5

Hesabatın strukturu aşağıdakı kimi tərtib olunur:

- Titul vərəqi (fənnin adı, kafedranın adı, mövzunun adı, tələbənin adı və soyadı, tarixi)
- Mündəricat
- Giriş: 1-2 səh
- Təhlil: 2-3 səh
- Nəticə: 1-2 səh
- İstifadə olunmuş ədəbiyyat
- Əlavələr

Hesabat aşağıdakı meyarlara əsasən qiymətləndirilir:

Meyarlar/ Ballar	1-2	3-4	5-6	7-8	9-10
Məqsəd	Məqsəd aydın ifadə olunmayıb, mövzu və tədqiqat sualı ilə əlaqəsi	Məqsəd qismən başa düşüləndir. Mövzu və tədqiqat sualı ilə əlaqəsi	Məqsəd qismən başa düşüləndir. Mövzu və/və ya tədqiqat sualı ilə əlaqə	Məqsəd aydın ifadə olunub və əsasən mövzu və/və ya tədqiqat sualı ilə əlaqə	Məqsəd aydın ifadə olunub, mövzu və tədqiqat sualı ilə tam əlaqə mövcuddur.

	yoxdur.	zəifdir.	natamamdır.	natamamdır.	
Tədqiqat sualları	Məqsədə aidiyyatı yoxdur və düzgün ifadə olunmayıb.	Qismən məqsədə aidiyyatı var, lakin düzgün ifadə olunmayıb.	Qismən məqsədə aidiyyatı var və başa düşüləndir.	Məqsədə aidiyyatı var və başa düşüləndir, lakin kiçik dərəcədə düzəlişə ehtiyac var.	Məqsədə tam aidiyyatı var, başa düşüləndir, doğru ifadə olunub.
Ədəbiyyatın icmalı	Natamam və ya nizamsızdır. İstinadı olmayan həddindən artıq sayda mənbələr daxildir. Əksər və ya bütün mənbələr aktual və/ və ya etibarlı deyil. Tədqiqat mövzusunun müvafiq nəzəri hissəyə bağlılığı yoxdur.	Qismən nizamlıdır. Az sayda istinadı olmayan mənbələr daxildir. Əksər mənbələr aktual və/ və ya etibarlı deyil. Tədqiqat mövzusunun müvafiq nəzəri hissəyə bağlılığı zəifdir.	Qismən nizamlıdır. Az sayda istinadı olmayan mənbələr daxildir. Mənbələr qismən aktual və etibarlıdır. Tədqiqat mövzusunun müvafiq nəzəri hissəyə bağlılığı qismən mövcuddur.	Ədəbiyyat icmalı tam və nizamlı şəkildə verilib. Az sayda istinadı olmayan mənbələr daxildir. Aktual və etibarlı ədəbiyyat mənbələrdən istifadə olunur. Tədqiqat mövzusunun müvafiq nəzəri hissəyə bağlılığı əsasən mövcuddur.	Ədəbiyyatın icmalı geniş və hərtərəfli müzakirə olunur. Bütün mənbələrin istinadları düzgün formada qeyd olunub. Mövzuya aid aktual və etibarlı ədəbiyyat daxildir. Tədqiqat mövzusunun müvafiq nəzəri hissəyə bağlılığı yüksək səviyyədədir.
Nəticələr və müzakirələr	Nəticələr tədqiqatın məqsədini əhatə etmir. Əldə olunan nəticələr əsassızdır. Mövzuya və tədris sahəsinə münasibətdə, tənqidi yanaşma yoxdur.	Nəticələr tədqiqatın məqsədinə qismən cavab verir. Mövzuya və tədris sahəsinə münasibətdə, tənqidi yanaşma təhlili az göstərilib.	Nəticələr tədqiqatın məqsədinə qismən cavab verir. Əldə olunan nəticələrin əsası müzakirə olunur. Mövzuya və tədris sahəsinə münasibətdə, tənqidi yanaşma təhlili qismən	Nəticələr tədqiqatın məqsədinə əsasən cavab verir. Əldə olunan nəticələrin əsası müzakirə olunur. Mövzuya və tədris sahəsinə münasibətdə, tənqidi yanaşma təhlili əsasən	Nəticələr tədqiqatın məqsədinə tam cavab verir. Əldə olunan nəticələrin əsası hərtərəfli müzakirə olunur. Mövzuya və tədris sahəsinə münasibətdə, geniş tənqidi yanaşma təhlili mövcuddur.

			uyğundur.	uyğundur.	
Texniki göstərişlər	Yazı işinin oxunulması çətindir. İşin yazılışında akademik qaydalar və yazı işinin tərtibi ilə əlaqədar əksər tələbləri nəzərə alınmayıb. İstinadlar uyğun formatda verilməyib və ciddi düzəlişə ehtiyac vardır.	Yazı işinin oxunulması qismən çətindir. İşin yazılışında akademik qaydalar və yazı işinin tərtibi ilə əlaqədar əksər tələbləri nəzərə alınmayıb əməl edilməklə tərtib olunub. Əksər istinadlar uyğun formatda verilməyib.	Yazı işinin oxunulması mümkündür. İşin yazılışında akademik qaydalar və yazı işinin tərtibi ilə əlaqədar tələblər gözlənilir. Əksər istinadlar uyğun formatda verilir.	Yazı işinin dili aydındır. İşin yazılışında akademik qaydalar və yazı işinin tərtibi ilə əlaqədar əksər tələblər gözlənilir. İstinadların sayı kifayət edir və uyğun formatda tərtib olunub.	Yazı iş yüksək akademik dildə tərtib olunub. İşin yazılışında akademik qaydalar və yazı işinin tərtibi ilə əlaqədar tələblərə əməl olunur. İstinadlar fərqli akademik/elmi mənbələrdən verilir və tam olaraq uyğun formatda tərtib olunub.

7. Təqvim-tematik plan

№	Dərs haqqında məlumat	Seminar (S)/ mühazirə (M)/ laboratoriya (L)	Tarix gg/aa/iiii, dərs saatın miqdarı
	Beynəlxalq hüququnun anlayışı və tarixi. Fənn və onun təlim prosesində yeri haqqında ümumi məlumat verilir. Beynəlxalq hüquq anlayışı. Beynəlxalq hüquq sistemi. Beynəlxalq və dövlətdaxili hüquq. Beynəlxalq hüququn tarixi. ***Mövzu ilə bağlı ədəbiyyat:*** 1. [5.1., 1, s.16-34]. 2. [5.2., 5, s.23-48]. ***İstifadə olunan tədris və öyrənmə metodu:*** Giriş mühazirəsi.	☐S ☒M ☐L	**18.02.2022** **2 saat**
II.	***Beynəlxalq hüququn prnsipləri.***		**20.02.2020**

	Beynəlxalq hüququn prinsip anlayışı. Dövlətlərin suveren bərabərliyi prinsipi. Güc tətbiq etməmək və güclə hədələmə prinsipi. Dövlət sərhədlərinin toxunulmazlığı prinsipi. Dövlətlərin ərazi bütövlüyü prinsipi. Dövlətlərarası mübahisələrin sülh yolu ilə həlli prinsipi. Daxili işlərə qarışmamaq prinsipi. İnsan hüquqlarına universal hörmət prinsipi. Xalqların və millətlərin öz müqəddəratını təyinetmə prinsipi. Əməkdaşlıq prinsipi. Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi ***Mövzu ilə bağlı ədəbiyyat:*** 1. [5.1., 2, s. 29-47]. 2. [5.2., 1, s. 58-82]. ***İstifadə olunan tədris və öyrənmə metodu.*** Mühazirə.	**☐S ☒M ☐L**	**2 saat**
III.	**Beynəlxalq hüququn prnsipləri.** Ilkin qiymətləndirilmə. ”Azərbaycan və xarici ölkələrin dövlət hüququ” fənni üzrə üzrə test tapşırığı. Frontal sorğusu.	**☒S ☐M ☐L**	**24.02.2022** **2 saat**
IV.	**Beynəlxalq hüququn mənbələri.** Beynəlxalq hüququn mənbəyinin anlayışı. Beynəlxalq müqavilə. Beynəlxalq hüquqi adət ***Mövzu ilə bağlı ədəbiyyat:*** 1. [5.1., 1, s.16-34]. 2. [5.2., 1, s. 58-82]. ***İstifadə olunan tədris və öyrənmə metodu.*** Problemin təhlili əsasında qurulmuş mühazirə.	**☐ S ☒M ☐L**	**25.02.2022** **2 saat**
V.	**Beynəlxalq hüquq prinsipləri və beynəlxalq hüququn mənbələri.** Tələbələrin hesabatlarının dinlənməsi.	**☒S ☐M ☐L**	**03.03.2022** **2 saat**

Qeyd: cədvəl nümunə kimi verildiyi üçün bu Təlimatda Təqvim-tematik planın natamam versiyası təqdim olunur.

Müəllim: h.ü.f.d., dos. Məmmədov Əli Əhməd oğlu

_____ (imza yeri)

Kafedra müdiri: s.e.ü.f.d., dos. Eyvazov C. Ə.

_____ *(imza yeri)*

İşçi tədris proqramı ____ _____ 20__ ci il tarixli kafedra iclasında

___ №-li protokolla təsdiq olunmuşdur